Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

İyun 2024 5-ci hissə

# LƏNKƏRANIN LİMON DƏYƏR ZƏNCİRİNİN İQTİSADİ İMKANLARI



*Limon bağı, Lənkəran*

Lənkəran rayonunda limon dəyər zəncirinin təhlili bu əhəmiyyətli məhsulun inkişafını və gələcək perspektivlərini vurğulayır. Təhlilə əsasən məlum oldu ki, əlverişli iqlim şəraitinə və unikal yerli məhsula baxmayaraq, Azərbaycanda limona olan tələbatın 70%-dən çoxu idxal hesabına ödənilir. Lakin, son illər limon bağlarının həm sahəsində, həm də məhsuldarlığında artım müşahidə olunub, bu da əsasən dövlətin kənd təsərrüfatı siyasəti və intensiv limon bağlarının yaradılmasına yönəlmiş subsidiyalar hesabına baş verib.

Vilvan kəndində 0,8 hektar sahədə limon yetişdirən Payım Veysəlov kimi istehsalçılar son illər sitrusun istehsalına verilən dəstəkdən bəhrələnib. Payım Veysəlov əkin sahələrini mandarin, kinkan (kumquats), gilas və digər meyvələrlə zənginləşdirərək riskləri minimuma endirən və sabit gəlir təmin edən strategiya müəyyən edib edib.



*Limon bağı, Lənkəran*



*Limon bağı, Lənkəran*

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Lənkəran rayonu, Astara və Masallı ilə yanaşı, limon, naringi və portağalın ən çox istehsal olunduğu rayondur. 2022-ci ildə Lənkəranda limon bağlarının sahəsi 267,7 hektara çatdırılıb. Bunun əhəmiyyətli hissəsi dövlət subsidiyasına düşür. Bu artıma baxmayaraq, regionda yüksək keyfiyyətli tinglər, zərərvericilərə qarşı effektiv mübarizə həlləri, su idarəçiliyi, yaxşı kənd təsərrüfatı məsləhət xidmətləri, soyuducu anbarlar və çeşidləmə maşınları azdır, eləcə də, həm yerli, həm də beynəlxalq bazarlarda tanıtım fəaliyyətləri də daxil olmaqla hələ də bir sıra problemlər mövcuddur.



***Limon tingləri***

İqtisadi göstəricilər limon istehsalının gəlirli bir sahə olduğunu və yeni bağlara investisiyaların yüksək gəlir gətirəcəyini göstərir. Lakin, istehsalı artırmaq üçün yüksək məhsuldar sortların daha geniş yayılması və uyğunlaşdırılması lazımdır.



***Lənkərandan intensiv sitrus nümayiş bağının salınması***

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi çərçivəsində aparılan təhlillərə əsasən, limon istehsalının artırılması üçün texniki yardım və maliyyənin təmin edilməsi istiqamətində növbəti addımlar atılır. Bu addımlar çərçivəsində layihə Antalyada Qərbi Aralıq dənizi Araşdırma İnstitutunda təlimdə iştirak etmək məqsədilə bir qrup sitrus istehsalçıları üçün Türkiyəyə təlim səfəri təşkil edib. Bundan əlavə, qabaqcıl kənd təsərrüfatı üsullarının tətbiqi ilə yeni tez və gec yetişən sortların əkilməsi üçün iki hektar ərazini əhatə edən yeni intensiv nümunəvi bağlar salınacaq. Bağların salınması ilə yanaşı, Limon İstehsalçıları Qrupu yaradılacaq və dəstəklənəcək. Lənkəran limonunun tanınması və rəqabət qabiliyyətinin artırılması üçün soyuducu anbarların yaradılmasının dəstəklənməsi, “Lənkəran limonu”nun brendləşdirilməsi və bazara çıxarılması istiqamətində addımlar atılacaqdır. Bu, məhsulun həm daxili, həm də beynəlxalq bazarlarda seçilməsini təmin etmək üçün unikal brend adının yaradılmasını və bazara çıxışın genişləndirilməsini əhatə edəcək.



***Türkiyə səfəri***

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

*This publication was produced with the financial support of the European Union. Its contents are the sole responsibility of the project and do not necessarily reflect the views of the European Union. The project is implemented by Consortium led by WeGlobal.*